# İnsayder əqdi barədə məlumat

“Unibank” Kommersiya Bankı” Açıq Səhmdar Cəmiyyətinin səhmdarı Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) ilə bağlanan alqı-satqı əqdi nəticəsində cənab Eldar Qəribovun Bankın Nizamnamə kapitalında iştirak payı 77,3839 %-dən artaraq 86.3839%-ə qaldırılmışdır. Əqdin bağlanmasından sonra cənab Eldar Qəribovun mülkiyyətində emitenti “Unibank” Kommersiya Bankı” Açıq Səhmdar Cəmiyyəti olan adi adlı sənədsiz səhmlərin sayı 39 916 476 ədəd təşkil etmişdir.

Bu əqd Bankın törəməsi olan “Unicapital” İnvestisiya Şirkəti” Açıq Səhmdar Cəmiyyətinin vasitəşiliyi ilə birjadankənar qaydada bağlanmış və həcmi 4 158 737 ədəd adi adlı sənədsiz səsli səhmdən ibarət olmuşdur, yəni Bankın bütün səhmlərinin Nizamnamə kapitalına olan faiz nisbətinin 9%-ni təşkil etmişdir.

“Unibank” Kommersiya Bankı” Açıq Səhmdar Cəmiyyəti 1992-ci ildən fəaliyyət göstərir. Bankın hal-hazırda Nizamnamə kapitalı 125 686 356 manatdır, 46 208 219 ədəd adi adlı sənədsiz səsli səhmlərdən ibarətdır.

“Unibank” Kommersiya Bankı” Açıq Səhmdar Cəmiyyətinin hüquqi ünvanı: Bakı şəhəri, Rəşid Behbudov küçəsi 55, məhəllə 384.